

# Azərbaycan Azəri

***Şəhid Azər Dilafət oğlu Əliyevin nurlu xatirəsinə həsr olunur. (06 yanvar 1999-cu il, Ağcabədi rayonu Yuxarı Qiyaməddinli kəndi – 28 yanvar 2021-ci il, Bakı şəhəri)***

Adın Vətənin adı,
Qovdun torpaqdan yadı.
Vətən eşqli, fədai,
Azərbaycan Azəri.

Keçdin iki savaşdan,
Vətən, can savaşından.
Yenə də qalib gəlib,
Oldun Şəhid Qəhrəman.

Darıxdın Qarabağdan,
Ona yollar axtardın.
Başlayaraq Arandan,
Xocavənddə qurtardın.

Sən komada olarkən,
Sənə hədiyyə gəldi.
O topçu ərənindən,
Qazanılmış Zəfərdi.

Bu Qələbə Sənindir!
Neçə ərənindir!
Bu Zəfər adaşının,
Ulu Vətənindir!

Sənsən tarixi yazan,
Vətənə layiq olan.
Qisas odun yandıran,
Düşməndən qisas alan.

Keçdin çətinliklərdən,
Qəhrəmantək dözdün sən.
Səsin gəlir Cənnətdən,
Orda rahat ol, həm şən.

Saya gəlmir ərənin,
Eldə həmin hünər var.
Bir öldün, min dirildin,
Əli adlı bir ər var.

O Səni yaşadacaq,
Çatacaq yeni ocaq.
Bir Şəhid oğlu kimi,
Mətin addım atacaq.

Sən Babək tək böyüdün,
Koroğludan güc aldın.
Vətən üçün can verib,
Xalq gözündə ucaldın.

Elimin mərd igidi.
Düşmənə dərd igidi.
Qəlblərdə yaşayırsan,
Ey Kərbəla şəhidi.

Yurdumun şah əsəri,
Zülfüqartək kəsəri,
Müzəffər, cəngavəri,
Azərbaycan sevəri,
Azərbaycan əsgəri!
Azərbaycan Azəri!

***Sevindik*** Nəsiboğlu
***09.08.2021***

Kredo.2021. 25 avqust. S.10.